

Hikmət Məlikzadə

...Əvvəl adamın özü,
Sonra da canı gəlir...
Günahlar çoxaldıqca
Ayrılıq anı gəlir...

Hər anın öz anı var,
Kimin dərdi, səri yox?!
Son mənzilə çatırıq...
Haqq-hesab dəftəri yox...

Ruhun da, axşam-səhər
Yaxaları ağ olur.
Ruhdan gen düşən adam
Əcələ dustağ olur.

* * *

Səsim ərşi titrədir,
İpi çürük zəng kimi.
Tanrıya tuşlanıbdı
əlim boş tüfəng kimi.

Kefimə dəysə külək,
Bulud yeri daşlayar.
Odun düşdüyü yerdən,
Təzə sevda başlayar.

Kimsə yox damın altda
məndən savayı, tez gəl.
Tale baha satılır,
Ömür havayı, tez gəl.

* * *

Yenə gözlərimin od həvəsi var,
Görür, ocaq keçib, kömürə qıymır...
...Biri çıraq tutur əcələ sanki,
Biri təmənnasız ömürə qıymır.

Kimsə taleyini çəpərə atıb,
Bilmir ki, oraya, vay, quş qonubdu...
Nə vaxtdı yuxuma bir gözəl girir,
Onun da damına bayquş qonubdu.

...Başımı yüz ildi havaya tutub,
Təsəlli umuram, elə, təsəlli.
Tanrı bir cür sıxır, həyat da bir cür,
Nəyimə gərəkdi belə təsəlli?!

...Mənim pəncərəmə bir damcı düşmür,
Gör, necə isladır çən, gözəl qızı?!
Dünyanın bəlkə də ən pis qızıdı,
Dünyanın bəlkə də ən gözəl qızı...

* * *

Allahım, qınaq olmasın, -
Bir ömür vermisən, o da təsəlli.
Ruhum qırx ildi qapına boşunamı gedir?
Yoxsa məni it kimi sinsitmək xoşunamı gedir?
Bitib əllərimin ətəyinə qalxmaq gücü.
Ömrümdə bir dəfə canımdan xəlvət
sevda yanğısına tutuldum,
sevdiyim qızı da özü boyda tabuta qoyub
özü böyüklükdə qəbrə atdılar.
Sabah ad günüdü;
Bəlkə nəmər yerinə özümü atım?
Sonra da qəbrinin üstündə
hayqırım, dözümü atım.
Ey xınalı şeytan!
Gəl, sənə öyrədim, qəlb quru olanda
necə dözürlər nəm acısına.
Hicran sarayının qapısını örtdün, ya örtmədin,
fərq etməz, gündə min dəlin açır.
Sənə nəfsi dilənçilər əlin açır.
Sən də, qonşudakı qız,
Elə zənn et yer üzünə təzə gəlmişəm,
Çıxart sandıqda əzizlədiyin sarı boxçanı,
Könül evimi bəzə, gəlmişəm.

### SƏNƏ YAZDIĞIM ŞEİR

...Tək, ruhumdu yaşıdı...
Bəlkə dürdü, qayədi;
Bəlkə namaz daşıdı,
Bəlkə də bir ayədi,
Sənə yazdığım şeir?!

Demə, Hikmət naşısa...
Bəlkə torpaqdı, gildi...
Bir əlcə başdaşısa,
Bir əlcə boz şəkildi
Sənə yazdığım şeir.

* * *

Sevgimin qora vaxtıdı...
...Bircə bu dəli çatmır ki...
Bir qız da, elə, Allaha
Tullanır, əli çatmır ki...

Nə tərsi bilir, nə düzü,
Həyasın qapıtək örtür...
O, mənim könül butamdı,
O, məni görəndə pörtür...

Umuduma arxayınam,
Torpaq qucaq açmaz, toxsa.
...Ruhundan gen düşüb hamı,
Zamana dəyişib yoxsa?!

* * *

Eşqin açmadığı sərt oyuqlara
Ya ruhla toxunum, ya candan girim...
...Bəlkə pəncərənə qonum quş kimi?!
Bəlkə külək kimi bacandan girim?

Mən aşiq olmağı bacarmadım heç,
Köksümdən qopartdım dayaq izləri...
...İtib elçi daşı mamırın altda,
Donub küçənizdə ayaq izləri...

Burda xatirələr canımı sıxır;
Ya küçə dar gəlir, ya damlar mənə.
Böyrümdən kölgələr köç edir, sanki
Daha ürkək baxmır adamlar mənə.

Burda nə sən varsan, nə dəli rüzgar,
Evlər yetim-yetim başını əyib...
Təkcə bu bulaqdı şahidim, o da
Kimsə yoxdu deyə qaşını əyib...

* * *

Ömür eniş-yoxuşdu,
Ürəyi zədələmə.
Əcəl minnət götürmür...
Taleyi hədələmə...

Yenə ruhun acıyıb,
Bu çığırtı nədi, qız?
Tanrıyla umu-küsün
Bəlkə bəhanədi, qız?

...Əvvəl də belə olub...
Dəri kimidi həyat.
Öz gününə ağlayan
Pəri kimidi həyat.